# "Əkinçi"dən müasir media platformasına

**Azərbaycan milli mətbuatı 150 illik yubileyini qeyd edir. Bu mühüm hadisə xalqımızın maarifçilik, mədəniyyət və azadlıq yolundakı uzun, zəngin tarixi dövrün simvoludur. Həsən bəy Zərdabi tərəfindən 1875-ci ildə əsası qoyulan milli mətbuatımız bu gün artıq qlobal informasiya şəbəkəsinin ayrılmaz hissəsinə çevrilmiş, müasir texnologiyalar dövrünün çağırışlarına cavab verən güclü media sistemi formalaşdırmışdır.**



1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlayan "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi, eləcə də o dövrün ictimai-siyasi həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Bu qəzetin yaranması təsadüfi deyildi o, xalqın maarifçilik və mədəniyyət sahəsindəki ehtiyaclarının təbii nəticəsi idi. Əsasən maarifçilik missiyasını üzərinə götürən "Əkinçi" qısa müddətdə həm ziyalılar, həm də sadə oxucular arasında böyük rəğbət qazandı. Qəzet informasiya təqdim etməklə həm də milli şüurun formalaşması, əhali arasında maariflənmə və dünyagörüşünün genişlənməsində mühüm rol oynayırdı. "Əkinçi"nin ömrü uzun olmadı. 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı nəşr olundu. Çar Rusiyası qəzetin insanların maariflənməsində və ictimai proseslərə daha fəal qoşulmasındakı rolundan narahat olaraq onun nəşrini dayandırdı. Lakin qısa fəaliyyət müddətinə baxmayaraq, "Əkinçi"nin Azərbaycan milli mətbuatının təşəkkülündə və inkişafında əvəzsiz rolu oldu. 1875-ci ildən sonra çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr verdi. "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Şərqi-Rus", "Həyat", "Füyuzat", "Dəbistan", "İrşad", "Təzə həyat", "Molla Nəsrəddin", "Tərəqqi", "Həqiqət", "Məktəb", "Açıq söz" kimi onlarla qəzet və jurnal XX əsrin əvvəllərində anadilli mətbuatımızın əsasını formalaşdırdı. 1896-cı ildən etibarən Həsən bəy Zərdabinin təşəbbüsü və kürəkəni Əlimərdan bəy Topçubaşovun redaktorluğu ilə nəşr olunan rusdilli "Kaspi" qəzeti də məzmun və ideya baxımından Zərdabi ideallarının daşıyıcısına çevrildi. Bu hadisə milli mətbuatımızın çoxdilli və beynəlxalq xarakter kəsb etməsinin ilk nümunələrindən biri oldu.

1993-cü ildən başlayaraq Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan dərin islahatlar nəticəsində senzura və söz azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırıldı. "Jurnalistlərin dostu" adını qazanan Ulu Öndərin rəhbərliyi ilə medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradıldı, onun iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi və vətəndaş cəmiyyəti quruculuğunda rolunun artırılması üçün ardıcıl tədbirlər həyata keçirildi. Nəticədə ölkədə mətbuat azadlığı prinsipləri bərqərar oldu və qəzet-jurnal bolluğu yarandı.

Ulu Öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırlanaraq qəbul olunmuş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" mediamızın strateji inkişaf istiqamətlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb etdi. 2021-ci ilin dekabrında qəbul olunmuş "Media haqqında" Azərbaycan Respublikasının Qanunu media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi prinsiplərini müəyyən edir. Bununla yanaşı, ölkə başçısının 2021-ci il 12 yanvar tarixli Fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun bazasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" (MEDİA) yaradıldı. Agentlik ölkəmizdə çap və onlayn medianın inkişafı, media orqanlarının maliyyə müstəqilliyinin gücləndirilməsi məqsədilə müxtəlif layihələr həyata keçirir. 2023-cü ildən media subyektlərinin bu sahədən əldə etdikləri gəlirlər üç il müddətinə vergilərdən azad edilib. Jurnalistlər isə güzəştli ipoteka kreditlərindən istifadə hüququ əldə ediblər.

44 günlük Vətən müharibəsində Azərbaycan mediası əsl vətənpərvərlik və həmrəylik nümunəsi göstərdi. Jurnalistlər həm xəbər istehsalçısı, həm də səfərbərlik proqramı çərçivəsində əməliyyatlara cəlb olundular. Onların haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaq və düşmənin saxta məlumatlarını ifşa etmək istiqamətindəki fəaliyyəti Zəfərimizin informasiya cəbhəsindəki əsas dayağına çevrildi. Müstəqillik dövründə ilk dəfə olaraq Azərbaycan jurnalistləri öz peşə bayramlarını Ermənistanın işğalından azad edilmiş Şuşa şəhərində qeyd etdilər. Bu, zəngin ənənələrə malik Azərbaycan mediasının tarixində əlamətdar hadisə oldu. Azərbaycan və Türkiyə arasında 2020-ci il dekabrın 10-da imzalanmış "Media sahəsində strateji əməkdaşlıq haqqında" Anlaşma Memorandumu əsasında Birgə Media Platforması yaradıldı. Bu əməkdaşlıq çərçivəsində bilik və təcrübə mübadiləsi, dezinformasiyaya qarşı birgə mübarizə kimi sahələrdə əməkdaşlıq inkişaf etdirilir. 2023 və 2024-cü illərdə Şuşada keçirilən Qlobal Media forumları Azərbaycan mediasının beynəlxalq nüfuzunu artırdı və onu qlobal informasiya proseslərinin fəal iştirakçısına çevirdi. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir parçasına çevirib. İnternet qəzetçiliyi sürətlə inkişaf edir, yüzlərlə jurnalist beynəlxalq təşkilatların dəstəyi ilə peşəkarlıq təlimlərində iştirak edir. Saxta və yalan məlumatlara əsaslanan kampaniyaların geniş yayıldığı bir vaxtda Azərbaycan mediası dezinformasiyaya qarşı mübarizədə ön sırada dayanır və həqiqətin təbliğində mühüm rol oynayır. Azərbaycan milli mətbuatının 150 illik tarixi xalqımızın mədəni və ictimai inkişafının ayrılmaz tərkib hissəsidir. "Əkinçi"dən bu günə qədər keçilən yol milli şüurun formalaşması, azadlıq ideyalarının reallaşması və demokratik dəyərlərin möhkəmlənməsində əvəzsiz rol oynayıb.

Bu gün Azərbaycan mediası ölkəmizin inkişafında və müasir cəmiyyət quruculuğunda fəal iştirakçı kimi beynəlxalq əlaqələrini genişləndirmiş, qlobal informasiya məkanında təsir imkanlarını artırmışdır. Milli mətbuatımızın 150 illik yubileyi gələcək üçün yeni bir mərhələnin başlanğıcıdır. III Şuşa Qlobal Media Forumu da Azərbaycan mediasının beynəlxalq informasiya məkanındakı mövqeyini gücləndirdi. Dünyanın müxtəlif ölkələrindən tanınmış media nümayəndələrinin iştirak etdiyi Forum qlobal informasiya axınında əməkdaşlıq imkanlarını genişləndirdi, dezinformasiya ilə mübarizədə beynəlxalq həmrəyliyin vacibliyini önə çıxardı. Eyni zamanda, Azərbaycan mətbuatının regional liderliyini və sülh, inkişaf, ədalət kimi universal dəyərlərin daşıyıcısı olduğunu bir daha sübut etdi. Forum çərçivəsində əldə olunan razılaşmalar, təklif və çağırışlar ölkəmizin media diplomatiyasına mühüm töhfə verdi. Forumun açılış mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin müstəqil, məsuliyyətli və milli maraqlara əsaslanan media siyasətindən danışaraq Azərbaycanın informasiya suverenliyinin qorunmasının prioritet məsələ olduğunu vurğuladı. Prezident bildirdi ki, dezinformasiyanın silaha çevrildiyi çağdaş dövrdə medianın cəmiyyətdə rolu və cavabdehliyi daha da artır və ölkəmiz bu proseslərə təkcə istehlakçı kimi deyil, informasiya istehsalçısı və təşəbbüskar güc kimi qoşulub. III Media Qlobal Forumu çərçivəsində keçirilən panel müzakirələrdə informasiya təhlükəsizliyi, süni intellektin media sahəsinə təsiri, jurnalistlərin etik məsuliyyəti və rəqəmsal dövrdə medianın transformasiyası kimi mühüm mövzular ətrafında fikir mübadiləsi aparıldı. Forum həm də Azərbaycan media subyektləri ilə xarici tərəfdaşlar arasında bilavasitə əlaqələrin qurulmasına, təcrübə mübadiləsinin genişlənməsinə, gələcək əməkdaşlıq platformalarının əsasının qoyulmasına zəmin yaratdı.

**Naqif HƏMZƏYEV,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2025.- 22 iyul (№ 149).- S.13.